# Azərbaycan tolerantlığının modeli fərqlidir

## Nəriman Qasımoğlu: "Qardaşlıq, xoşgörü, vəhdət çərçivəsində namaz qılınması multikulturalizmin daha bir əyani təsviridir"

**Ötən həftə Bakıdakı Heydər Məscidində cümə namazı qılınıb. Vəhdət namazı adlandırılan bu mərasimdə məzhəbindən asılı olmayaraq bütün müsəlmanlar, o cümlədən sünni və şiə kəsimi bir araya gələrək eyni vaxtda, bir yerdə namaz qılıb, dualar ediblər. Bu tədbir Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan olunması fonunda mühüm əhəmiyyət daşıyır və Azərbaycanın tolerantlıq mərkəzi kimi bütün dünyada nüfuzunun daha da artmasına xidmət edir. Azərbaycanda "Multikulturalizm ili", Heydər Məscidində vəhdət namazı, bu addımla dünyaya verilən mesajlar və sair məsələlərlə bağlı "Kaspi"nin suallarını Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Analitika şöbəsinin müdiri Nəriman Qasımoğlu cavablandırır.**



**Multikulturalizm termininin Azərbaycan ictimai-siyasi leksikonuna yeni daxil olmasına baxmayaraq, bu ənənənin dərin kökləri, qədim tarixi var. Azərbaycanlılar daim bu ənənəni yaşadıblar, qoruyub saxlayıblar. Bu, indi də davam etməkdədir. Multikulturalizm terminə bir qədər aydınlıq gətirib qeyd etmək istərdim ki, multikulturalizm yalnız çoxmədəniyyətlilik, müxtəlif dini-etnik konfessiyalara mənsub insanların yaratdığı durum deyil**

**- Nəriman müəllim, multikulturalizm ənənəsi Azərbaycanda nə zamandan mövcuddur və multikultural mühit ölkə üçün nə dərəcədə əhəmiyyətlidir?**

- Multikulturalizm termininin Azərbaycan ictimai-siyasi leksikonuna yeni daxil olmasına baxmayaraq, bu ənənənin dərin kökləri, qədim tarixi var. Azərbaycanlılar daim bu ənənəni yaşadıblar, qoruyub saxlayıblar. Bu, indi də davam etməkdədir. Multikulturalizm terminə bir qədər aydınlıq gətirib qeyd etmək istərdim ki, multikulturalizm yalnız çoxmədəniyyətlilik, müxtəlif dini-etnik konfessiyalara mənsub insanların yaratdığı durum deyil. Multikulturalizm məfhum olaraq o zaman tamamlanır ki, multikultural mühit dövlət siyasəti ilə dəstəklənir. O yerdə ki dövlət siyasəti və multikultural durum var, orada da sözün həqiqi mənasında multikulturalizm mövcuddur. Əgər bir yerdə multikultural durum var, amma bu yöndə dövlət siyasəti yoxdursa, orada multikulturalizm mövcud deyil. Bu, multikulturalizm termininin mahiyyətindən irəli gələn məsələdir. Ona görə də cənab Prezident bəyan edəndə ki multikulturalizm Azərbaycanda dövlət siyasəti və həyat tərzidir, bununla o, multikulturalizm termininin mahiyyətini diqqətə çatdırıb. Azərbaycan Prezidentinin 2016-cı ili "Multikulturalizm ili" elan etməsinin zəruriliyinə gəlincə, bu, elə bir zamanda baş verib ki, bir sıra dövlətlərdə bu dəyərin gözdən salınması istiqamətində bəyanatlar səslənməkdədir. Azərbaycanda "Multikulturalizm ili"nin elan olunması hadisəsi Yaxın Şərqdə dini zəmində etnik münaqişələrin cərəyan etməsi fonunda baş verir. Eləcə də dini zəmində bu cür xoşagəlməz hadisələr bir sıra xarici dövlətlərin daxili siyasətində özünü göstərir. Belə neqativ hadisələr fonunda multikulturalizm Azərbaycan tərəfindən bir dəyər olaraq yenidən dünyanın gündəminə gətirilir. Digər tərəfdən, dövlət başçısı tərəfindən belə bir sərəncam imzalanmasının əsas hədəflərindən biri dünyanı Azərbaycan multikulturalizmi modeli ilə yaxından tanış etməkdir. Bu ana qədər də bu tanışlıq davam etdirilirdi. Artıq ölkədə multikulturalizm istiqamətində bir neçə layihə həyata keçirilib. 2008-ci ildən başlayaraq Bakı prosesi də davam etməkdədir. Bu kimi çoxsaylı faktları nəzərə alsaq, 2016-cı ilin "Multikulturalizm ili" elan olunmasını həm də bütün görülən işlərin kulminasiya nöqtəsi kimi dəyərləndirmək olar. Hər halda bu, Azərbaycan multikulturalizmi modelinin yenidən dünyaya təqdim olunması istiqamətində mühüm dövlət qərarıdır. Hazırda da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan multikulturalizmi modelini bir neçə xarici ölkədə təbliğ etməkdədir. Xarici universitetlərdə Azərbaycan multikulturalizmi bir fənn kimi tədris olunur, bu çərçivədə ölkəmiz, onun multikultural dəyərləri öyrənilir. Bu prizmadan Azərbaycanın siyasəti, mədəniyyəti, ədəbiyyatı, elmi-fəlsəfi qaynaqları öyrənilir. "Multikulturalizm ili"nin elan olunması sadalanan istiqamətlərdə görülən işlərin daha miqyaslı xarakter alması üçün geniş imkanlar açır, hər kəsin diqqətini bir daha bu dəyərin özünə cəlb edir. Eləcə də bu dəyərin Azərbaycan nümunəsində necə qorunub saxlanmasını nümayiş etdirir.

**- Min ildən artıq idi ki, İslam dünyasının sünni və şiə adlı iki böyük məzhəb nümayəndələri ibadətlərini fərqli şəkildə, fərqli məkanlarda edirdilər. Lakin yanvarın 15-də Heydər Məscidində hər iki məzhəb təmsilçiləri vəhdət namazı qıldılar. "Multikulturalizm ili"nin elan olunması fonunda belə bir hadisəni necə dəyərləndirirsiniz?**

- Azərbaycan ərazisində heç zaman məzhəblər və konfessiyalar arasında konflikt qeydə alınmayıb. Düzdür, müəyyən tarixi dövrlərdə xalqımızı bununla sınağa çəkmək cəhdləri olub. İşğalçı dövlətlər ölkəmizin ərazisini ələ keçirməkdən ötrü ayrı-ayrı məzhəblər arasında dava-dalaş yaratmaq istəyiblər. Sevindirici haldır ki, bütün bu vəziyyətdən, işğaldan, faciələrdən, zamanın gətirdiyi tarixi sınaqlardan multikulturalizm dəyərləri zavala uğramadan, uğurla çıxıb. Azərbaycanda nəinki məzhəblərarası, eləcə də digər din təmsilçiləri ilə müsəlmanlar arasında da heç zaman konflikt olmayıb. Yanvarın 15-də Heydər Məscidində vəhdət namazının qılınması həmin ənənənin çağdaş dövrdə bir növ əyani təsviqidir. Dünyada dini, etnik zəmində baş verən hadisələr fonunda belə bir addımın atılması olduqca mühüm əhəmiyyətə malikdir. Yaxın Şərq ölkələrində siyasiləşmiş məzhəblər arasında bu gün qanlı qarşıdurmalar davam edir. İranla Səudiyyə Ərəbistanı, Pakistan timsalında bu xoşagəlməz münasibətlər özünü büruzə verməkdədir. Avropa ölkələrində də islamofobiya özünü göstərməkdədir. Buna da səbəb məzhəblərin siyasiləşməsi, bundan bir sıra problemlərin qaynaqlanmasıdır. Belə olan halda İslamın əsl mahiyyəti düzgün çatdırılmır. Azərbaycanda isə İslamın təqdimatı tamamilə fərqli formada baş verir. Yəni İslam dininə etiqad göstərən, amma fərqli məzhəbləri təmsil edən nümayəndələr arasında heç bir münaqişənin baş vermədiyi müştəvidə. Qardaşlıq, xoşgörü, vəhdət çərçivəsində namaz qılınır. Bu da multikulturalizmin daha bir əyani təsviridir.

**- İslam dininin fəlsəfəsini, müqəddəs kitabımız "Qurani-Kərim"də əksini tapan ayələri əsas götürsək, vəhdət namazı nə dərəcədə zəruridir, hansı dəyərə malikdir?**

- Vəhdət namazı İslam dininin mahiyyətinə tamamilə uyğun gələn hadisədir. Məsələn, "Qurani-Kərim"də belə bir ayə var: "O kəslər ki, dinlərini bölüblər, firqələniblər, onların sənə heç bir dəxli yoxdur". Bu ayə möcüzəli şəkildə sonrakı tarixlərdə baş verən ziddiyyətlərə işıq tutur. "Qurani-Kərim"də də ayələr vasitəsilə buyurulur ki, dində bir bütövlük var, tanrının kitabı birdir. Bu, tarixin gətirdiyi reallıqlardır. Amma bu tarixi reallıqların özü, eləcə də fərqli məzhəblər Azərbaycanda problemlər yaratmır. Əsas diqqəti buna çəkmək istəyirəm. Bu kimi səbəblərdən vəhdət namazı dinimizin mahiyyətindən irəli gəlir. Həm məzhəblərin tarixən yaranması, həm də məzhəblərin bu qədər siyasiləşməsi isə dinimizin mahiyyətinə ziddir. Azərbaycanlıların altşüurunda hər zaman başqasına tolerant yanaşma var. Ona görə də ölkəmizdə nə başqa dinlərin nümayəndələrinin olması, nə də İslam dininin ayrı-ayrı məzhəb nümayəndələrinin yaşaması hər hansı problemlə müşayiət olunub. Bu da Azərbaycan tolerantlığının modelini yaradıb. Bu, fərqli modeldir. Azərbaycan müsəlmanlarının tarixən gəlişmiş dindarlığı digər qonşu ölkələrin dindarlığından fərqlidir. Bunun səbəblərindən uzun-uzadı danışmaq olar. Hər halda reallıq bundan ibarətdir.

**- Yəqin ki, vəhdət namazından sonra fərqli məzhəbləri təmsil edən dindarlarla, ziyalılarla bu mövzuda ünsiyyətdə olmusunuz. Onların bu məsələyə münasibəti necədir?**

- Bu mövzuda daha çox ziyalılarla ünsiyyətdə olmuşam. Onlar tərəfindən bu addım çox müsbət qarşılanır. Bu məsələ Azərbaycan ziyalısının hər zaman istəyi olub. Hətta çar Rusiyası zamanında iki adda fəaliyyət göstərən sünni və şiə müsəlman idarəsinin vahid ad altında birləşdirilməsi istiqamətində Azərbaycan ziyalıları, maarifçi demokratlar mübarizə aparıblar. Hansı ki, həmin ziyalılar sonradan Şərqdə ilk demokratik cümhuriyyəti Azərbaycanda yaratdılar. Onlar istəyirdilər ki, sünni və şiə müsəlman idarəsi bir ad altında fəaliyyət göstərsin. Çünki çar Rusiyası məqsədli şəkildə bu idarəni iki ad altında yaratmışdı. Çar Rusiyası lazım gəldikdə bir idarəni digərinin üzərinə qaldırmaq, müsəlmanlar arasında birliyi-bərabərliyi pozmaq, beləliklə də parçalayaraq uzun müddət hökm sürmək niyyəti güdürdü. Amma Azərbaycan ziyalıları, siyasətçiləri fərqli adlar altında fəaliyyət göstərən bu idarəni birləşdirdilər və milli bütövlüyə nail oldular. Göründüyü kimi, XX əsrin əvvəllərində də cümhuriyyət qurucuları bu ideyanın arxasınca gediblər. Bu gün də bu siyasət davam etdirilir. Bunun başqa bir nümunəverici əhəmiyyəti də ondan ibarətdir ki, dünyada məzhəblər, dinlərarası savaş getdiyi halda, Azərbaycanda sabitlik, multikulturalizm, tolerantlıq qorunub saxlanılır və inkişaf etdirilir. Bununla Azərbaycan dünyaya, xaricdə yaşayan müsəlmanlara ibrət göstərir ki, dini siyasətə alət etmək cəhdlərindən daşınsınlar.

**- Siz nümunə olmaqdan danışdınız. Azərbaycan öz dəyərləri, multikulturalizm və tolerantlıq ənənələri ilə dünyaya, inkişaf etmiş ölkələrə də nümunə ola bilirmi?**

- Biz bu addımlarla Azərbaycanı dünyaya qarşı qoymuruq. İddia etmirik ki, multikulturalizm ənənəsi yalnız bizdədir. Dünyada müxtəlif multikulturalizm ənənələri var. Azərbaycan modeli isə bunlar arasında özünəməxsus yer tutur, maraq doğurur, öyrənilir. Təsadüfi deyil ki, multikulturalizm xarici universitetlərdə ilk dəfə Azərbaycan nümunəsində öyrənilir. İndi təsəvvür edin ki, Azərbaycan dünya səviyyəsində tədrisdə nəyə imza atıb. Multikulturalizm siyasətşünaslığın, fəlsəfənin, ədəbiyyatın, mədəniyyətin bir hissəsi olaraq, elm kimi öyrənilir. Bu, olduqca mühüm amildir. Çünki bu günə qədər multikulturalizm mövzusunda elmi əsərlər yazılsa da, tədris edilmirdi. İlk dəfə olaraq tədris edilir, multikulturalizmin Azərbaycan nümunəsinə maraq artır. İnkişaf etmiş bəzi ölkələrdə multikulturalizm siyasəti, multikulturalizm var. Amma o siyasətlərdə qüsurlar var, bundan irəli gələrək də problemlər var. Həmin problemlərin səbəbini multikulturalizmdə görən siyasətçilər son dövrlər mənfi yüklü bəyanatlar verirlər. Halbuki 30-40 il əvvəl bu kimi problemlərin həlli multikulturalizm dəyərlərinin təşviqində görülürdü. Lakin sonradan həyata keçirilən millətçilik siyasəti, multikulturalizm siyasətinin düzgün aparılmaması bir sıra problemlərə yol açıb. Bu fonda Azərbaycan multikulturalizmi nümunəverici mahiyyət kəsb edir.

**Rufik İSMAYILOV**